No: 01 2026
https://doi.org/10.64400/ea26-01-38
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# AZƏRBAYCANIN YARATDIĞI GEOSİYASİ REALLIQLAR REGİONAL KONYEKTURADA

**Nazlı YAQUBOVA**
Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
**Yazışılan müəllif: nazliyaqubova@ndu.edu.az*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 03.03.2026*
*Nəşr edilmə tarixi: 17.03.2026*

**AÇAR SÖZLƏR:** Azərbayan, münaqişə, reallıq, Cənubi Qafqaz, Qarabağ

**XÜLASƏ**
Azərbaycanın regionda coğrafi mövqeyi, Qərb və Şərq arasında körpü rolunu oynaması, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılmasında, Böyük İpək yolunun bərpasında fəal iştirak etməsi və qitənin enerji təhlükəsizliyində vacib rol oynayan ölkələrdən biri kimi qloballaşan dünyada ölkəmizi əsas sırasına yüksəldir. Zəngin karbohidrogen ehtiyatları regionda tarixən olduğu kimi, bu gün də böyük dövlətlər arasında regional maraqların formalaşmasına və siyasi-iqtisadi rəqabətə səbəb olan amillər Azərbaycanın potensialını daha da artırır. 2020- ci ildə əks –hücum əməliyyatı ilə dünyaya XXI əsr müharibəsini nümayiş etdirən ölkəmiz bütün dünyaya “dəmir yumruq” və “dəmir iradənin” gücünü göstərmişdir

## GİRİŞ

Münaqişə vəziyyətini yaradan amillərdən danışarkən belə bir metodoloji prinsipi qeyd etmək yerinə düşər ki, etnik qruplar və dövlətlər arasındakı müasir münaqişələr böyük tarixi hadisələrin mirasıdır. Bu baxımdan Qarabağ münaqişəsinin də genezisi bariz nümunə kimi götürülə bilər.

Ümumiyyətlə, beynəlxalq münasibətlərin müasir real məntiqi tələb edir ki, iri dövlətlər regional münaqişələri vaxtında birgə səylə tənzimləməlidirlər. Yoxsa, onun fəalları təkcə münaqişə tərəflərinə deyil, regionun digər dövlətlərinə də təsirsiz ötüşməyəcəkdir. Ermənistanın təcavüzkarlıq siyasəti regionda inteqrasiya prosesinə, demokratikləşməyə mane olur və insan hüquqlarını pozur.

Sovet İttifaqının süqutundan sonra Cənubi Qafqazda geosiyasi proseslərin intensivliyi ilə böyük dövlətlərin maraqlarının müəyyən məqamlarda kəsişməsi paralellik təşkil edir. Artıq dünyanın və regionun aparıcı dövlətləri həmin gerçəklikdən çıxış edərək Cənubi Qafqaz siyasətlərini tənzimləyirlər. Bunların fonunda region dövlətlərinin yeritdikləri daxili və xarici siyasətin aktuallığı daha da artır. O cümlədən, Azərbaycanın bölgədəki mövqeyi daha böyük əhəmiyyət kəsb etməyə başlayır. Bunun əsas səbəbi Azərbaycanın Cənubi Qafqazda iqtisadi və mədəni baxımdan potensial lider dövlət olmasıdır.

“Azərbaycanın coğrafi mövqeyi özü onun xarici siyasətini müəyyən edir”, – deyən Prezident İlham Əliyev respublikamızın necə həssas və mürəkkəb geosiyasi məkanda yerləşməsinin fərqindədir və özünün xarici siyasət strategiyasını bölgənin xüsusiyyətlərini, özəlliklərini nəzərə almaqla həyata keçirir. (2. S 234)

Ölkəmizin xarici siyasəti son dərəcə düşünülmüş proqram üzərində qurulmuş və uzaq geostrateji perspektivlərin nəzərə alınması ilə həyata keçirilir. Azərbaycan regionda maraqları toqquşan bütün dövlətlərlə əlaqələrini bərabərhüquqlu iqtisadi-siyasi tərəfdaşlıq səviyyəsində qurmağa müvəffəq olmuşdur. Azərbaycan Cənubi Qafqazda, bütövlükdə MDB və Avropa məkanında çox az sayda olan dövlətlərdən biridir ki, Rusiya, ABŞ, Türkiyə, İran və İsrail kimi maraqları toqquşan dövlətlərlə bərabər hüquqlu, qarşılıqlı hörmətə, praktiki əməkdaşlığa əsaslanan münasibətlər qurmağa nail olmuşdur.

Rusiya və Türkiyə arasında yaxınlaşma iqtisadi-siyasi münasibətlərin dərinləşməsi, nəticə etibarilə Cənubi Qafqazdakı siyasi proseslərə də müsbət təsir göstərə bilər.

Cənubi Qafqaz regionunda geostrateji maraqları cəmləşmiş digər güc mərkəzlərindən biri də Türkiyədir. Türkiyə ilə münasibətlərin yeni mərhələyə keçməsi ulu öndər Heydər Əliyevin xarci siyasətinin uğurlarındandır. Bu siyasətin mahiyyəti onun dillər əzbərinə çevrilmiş “bir millət iki

dövlət" formulunda öz əksini tapmışdır. Bu gün Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabərhüquqlu iqtisadi tərəfdaşıdır.

Azərbaycanla Türkiyənin regionda sülhün və təhlükəsizliyin qorunması üçün həm ATƏT və BMT başda olmaqla bir çox beynəlxalq və regional təşkilatlar çərçivəsində həm ikitərəfli münasibətlərdə, həm də beynəlxalq aləmdə nümayiş etdirdiyi əməkdaşlıq klassik beynəlxalq münasibətlər nəzəriyyəsinin postulatları ilə üst-üstə düşür.

Hazırda Azərbaycan regionda fəaliyyət göstərən geosiyasi güc mərkəzlərinin, demək olar ki, hamısı ilə dostluq və əməkdaşlıq prinsipləri üzərində qurulan münasibətlər yaratmaqla, eyni zamanda, Qərblə və o cümlədən ABŞ-la strateji əməkdaşlığa yönəldilmiş siyasi xətti uğurla davam etdirməkdədir.(2. S 456)

İri dövlətlərin və region ölkələrinin münaqişənin nizamlanmasına göstərdikləri cəhdlər o zaman konkret və rasional olur ki, münaqişə bilavasitə tərəflərin maraqlarından daha çox iri dövlətlərin və region ölkələrinin mənafelərinə ziyan vursun. Beynəlxalq təcrübə son vaxtlar sübut edir ki, mühüm siyasi münaqişələrin böyük dövlətlərin birgə səyi ilə həlli eyni zamanda, həmin ölkələr arasında kiçik ziddiyyətlərin də aradan götürülməsinə imkan yaradır

Azərbaycan Respublikasının 2020-ci ilə qədər Qarabağ münaqişəsində dəfələrlə həm Ermənistana, həm də dünya siyasi elitasına Qarabağla bağlı tarixi reallıqları rəsmi qaydada sübut etmişdir. Həmin diplomatik uğurların nəticəsini aşağıdakı beynəlxalq sənədlərdə müəyyənləşdirmək olar:

1. BMT-nin Baş Məclisinin geniş iclasında sessiyanın gündəliyində 20-ci bənd kimi öz əksini tapan "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət", 9 bənddən ibarət qətnamənin qəbulu BMT-nin yenidən Ermənistanı işğalçı dövlət kimi tanıması Azərbaycan üçün hər mənada strateji əhəmiyyətli qərardır. (3. S 67)

2. NATO-nun 2008-ci il aprelin 24-də Buxarest zirvə toplantısı və Şimali Atlantika Şurası xarici işlər nazirlərinin dekabrın 2-3-də Brüssel toplantısı da açıq şəkildə Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə dəstək ifadə etmiş, münaqişənin ərazi bütövlüyü prinsipi əsasında həllini zəruri hesab etmişdir.(3. S 68)

3. Rusiyanın təşəbbüsü və vasitəçiliyi ilə 2008-ci il noyabrın 2-də Azərbaycan və Ermənistan prezidentləri arasında imzalanmış "Mayın Dorf Bəyannaməsi"nin qəbulu mühüm elementləri özündə əks etdirir. İlk dəfə bu bəyannamədə rəsmi Yeravan münaqişə tərəfinin Dağlıq Qarabağ deyil, Ermənistan tərəfi olduğunu hüquqi baxımdan təsdiqləmişdir.

4. Rusiya, Azərbaycan və Ermənistan dövlətləri tərəfindən imzalanmış "Moskva Bəyannaməsi"ndə Ermənistan özü belə münaqişənin ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyinə imza atıb. Yəni, artıq İrəvan rəhbərliyi də Dağlıq Qarabağ və ətraf rayonların hamısının Azərbaycanın hüquqi ərazisi olduğunu dərk və qəbul edir.

5. Afinada keçirilən ATƏT-in xarci işlər nazirlərinin toplantısında münaqişənin ərazi bütövlüyü çərçivəsində həllinə ilk dəfə Ermənistanın qol çəkməsi, ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə hüququnun birgə tətbiqi o deməkdir ki, Dağlıq Qarabağa nə qədər yüksək özünüidarə hüququ verilirsə-verilsin, bu hüquq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində reallaşacaq.(1. S 35)

6. 2009-cu il iyulun 10-da ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinin prezidentləri Barak Obama, Nikola Sarkozi və Dmitri Medvedevin "Böyük səkkizlərin" İtaliyada keçirilən sammiti zamanı irəli sürülən "Madrid prinsipləri"nin yeni versiyası ilə bağlı bəyanatları münaqişənin tənzimlənməsi prosesinə impuls vermişdir.(1. s 34)

Region dövlətləri və beynəlxalq təşkilatlar Qarakənd faciəsinə, Xocalı soyqırımına və işğal olunan digər rayonlarda baş verən faciələrə göz yumurdular. İşğalçı dövlətlə işğala məruz qalan dövlət arasında fərq qoymadılar və ikili siyasət həyara keçirirdilər. Eləcə də işğalçı dövlətə təzyiq etməkdənsə, əksinə Ermənistan dövlətinə himayədarlıq edirdilər. Bu da Qarabağ münaqişəsinin uzanmasına səbəb olurdu. Nəticədə cəsasızlıq prezumsiyasından istifadə edən Ermənistan yeni revanşa cəhd edirdi.

İkinci Qarabağ müharibəsi 27 sentyabr 2020-ci ildə, Ermənistanın Azərbaycan ərazilərinə hücum etməsi ilə başladı. Azərbaycan, sürətli və effektiv hərbi əməliyyatlarla qarşılıq verdi və bu müddət ərzində strateji əhəmiyyətə malik əraziləri geri aldı. Bir neçə həftə davam edən döyüşlər,

intensiv bombardmanlar və hava hücumları ilə xarakterizə olundu. Azərbaycan ordusu, müasir texnologiyalar və taktikalardan istifadə edərək əhəmiyyətli müvəffəqiyyətlər əldə etdi və nəticədə münaqişə 10 noyabr 2020-ci ildə imzalanan atəşkəs razılaşması ilə sona çatdı. Bölgədə yeni geosiyasi reallıqların ortaya çıxmasına səbəb oldu. Müharibə sonrası yaranan vəziyyət, regional və beynəlxalq səviyyədə bir sıra dəyişikliklərə yol açdı.

44 günlük Qarabağ müharibəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdıqdan sonra da həm müharibədən əvvəlki danışıqlar prosesində, həm müharibənin gedişi prosesindəki qərəzli yanaşmalarda, həm də müharibədən sonrakı regional maraqlarda öz üstün-haqlı mövqeyini qorumaqla beynəlxalq təşkilatlarda da, region və dünya dövlətləri arasında da sabit mövqeyini nümayiş etdirməklə etibarlı tərəfdaş olduğunu bir daha təsdiqlədi. Müharibəyəqədərki danışıqlar dövründə olduğu kimi müharibə dövründə də region dövlətləri- Rusiya, İran və Türkiyənin Azərbaycana münasibətləri müharibənin taleyində bir sıra məqamlara təsir etdi. Azərbaycan qardaş Türkiyənin tam dəstəyi ilə yanaşı digər regional güc mərkəzlərinin də mövqeyini nəzərə alaraq postmüharibə dönəmindəki regional layihələrdə öz mövqeyini möhkəmlətdi.

İkinci Qarabağ müharibəsinin gedişi dövründə qərb dövlətlərinin mövqeyi ilə müharibədəki tam qələbədən sonrakı Qərb dövlətlərinin mövqeyini eyni gözdə görmək olmaz. Belə ki, istər Avropa ölkələri, istərsə də ABŞ Azərbaycanla diplomatik müstəvidəki danışıqlarda ordumuzun qələbəsini və bundan sonrakı regional layihələrdə Azərbaycanın mövqeyini nəzərə almağa başladılar. Azərbaycanın yerləşdiyi əlverişli geosiyasi mövqe, bir sıra beynəlxalq enerji layihələrinin əsas siması olması postmüharibə dövründə də yeni nəqliyyat layihələrinin qurulması zamanı ölkəmizin üstün mövqeyini təmin etmiş olur.

İkinci Qarabağ müharibəsindən sonrakı dövrdəki siyasi münasibətlər birmənalı şəkildə deməyə əsas verir ki, Azərbaycan Cənubi Qafqazda böyük gücə çevrilmişdir. Bu statusun müəyyənləşməsində müharibədən sonrakı dövrdə Azərbaycanın apardığı uğurlu diplomatiyanın payı danılmazdır. Beynəlxalq ipək yolu və bir sıra dünya əhəmiyyətli nəqliyyat layihələrinin həyata keçirilməsində müharibədən sonrakı hərbi-siyasi gücünün qəbul oldunduğu Azərbaycanın mövqeyi beynəlxalq müstəvidə təsbit olundu. Artıq Azərbaycan regionda sabit, əzmli tərəfdaş kimi qəbul olunmuşdur.

İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda geosiyasi maraqlar yenidən gözdən keçirilir, böyük güc mərkəzləri "Güclünün yanında dur!" prinsipini nəzərə alaraq strateji maraqlarını ortaya qoyurlar. Cənubi Qafqazda yeni geosiyasi maraqlarda Azərbaycanın üstün mövqeyi nəzərə alınır. Burada müharibə dövründə Türkiyənin Azərbaycana tam dəstəyinin də payı danılmazdır.

44 günlük vətən müharibəsinin bitməsi, Azərbaycanın tam qələbə əldə etməsi, Ermənistanın məğlub ölkə kimi kapitulyasiya aktı imzalayaraq geri çəkilməsi, əlavə olaraq Ermənistanda artan hərbi, iqtisadi tənəzzül, regional müstəvidə yaradılmış  şişirdilmiş ermənistan "mif"inin dağılması Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni geosiyasi rallıqların dünya ölkələri tərəfindən qəbulunu labüdləşdirdi. Diplomatik müstəvidə aparılan danışıqlar, ölkəmizin hərbi olduğu kimi diplomatik sahədə də üstünlük əldə etməsi Azərbaycanı təkcə Cənubi Qafqazın yox bütünlükdə dünya arenasında güc mərkəzinə çevirdi. Müharibə dövründə olduğu kimi postmüharibə dövründə də Türkiyə, Pakistan kimi daimi tərəfdaşlarımızın artan dəstəyi Azərbaycanı beynəlxalq münasibətlər sistemində güclü tərəfdaşa çevirdi. Beynəlxalq və regional enerji, nəqliyyat və bir sıra layihələrdə ölkəmizin üstün mövqe qazanması gələcəkdə Azərbaycanın həm hərbi-siyasi, həm də iqtisadi, diplomatik gücünü təmin edəcəkdir.

Müharibə bitsə də Azərbaycan ordusunun qəhrəmanlıqları, müharibə taktikaları, Azərbaycan diplomatiyasının peşəkarlığı barədə dünya medyası hələ çox danışacaqdı. Çünki İkinci Qarabağ müharibəsinə qədər Ermənilər öz miflərinə özlərini belə inandırmışdı. Nəticədə erməni mifi məhv oldu. Ermənistan isə, müharibə nəticəsində ciddi iqtisadi və siyasi itkilərə məruz qaldı. Ermənistanın iqtisadiyyatı zərər gördü və ölkənin daxili siyasi vəziyyəti qarışdı. Bu, Ermənistanın regional siyasətində dəyişikliklərə və münaqişə sonrası yeni strateji prioritetlərə yönəlməsinə səbəb oldu.

### Azərbaycanın Qələbəsinin Geosiyasi Təsirləri

Azərbaycanın qələbəsi, regionda bir sıra geosiyasi təsirlərə səbəb oldu. Birincisi, Azərbaycan, müharibə nəticəsində Qarabağ bölgəsindəki ərazi itkilərini geri aldı və bölgədəki strateji ərazilərin nəzarətini əldə etdi. Bu, Azərbaycanın regional gücünü artırdı və ölkənin ərazi bütövlüyünü təmin etdi. Əlavə olaraq xalqımız "dəmir yumruq " ətrafında dəmir iradə ilə sıx birləşərək dünyaya həmrəylik, xalq –dövlət, xalq –ordu, ordu-dövlət birliyini bir daha nümayiş etdirdi.

Müharibə sonrası, Azərbaycan ilə Ermənistan arasında imzalanan atəşkəs razılaşması, regionda yeni geosiyasi düzəni təsdiqlədi. Razılaşmaya əsasən, Azərbaycanın nəzarət etdiyi ərazilər genişləndi. Ermənistanın regional mövqeyini zəiflәti. Həmçinin, Türkiyə, Azərbaycanın müttəfiqi olaraq, müharibə zamanı və sonrasında əhəmiyyətli bir rol oynadı, bölgədəki təsirini artırdı və strateji əlaqələrini gücləndirdi. Eyni zamanda bölgədəki komunikasiyaları blokadadan çıxaran lahiyə- Zəngəzur dəhlizi anlayışı leksikonumuza daxil oldu. Öncə dəhlizin tarixi barədə məlumat verilməlidir.

Tarixi çox qədim olan İpək yolu Çini orta Asiya vasitəsi ilə yaxın Şərq, və Xəzər dənizi ilə birləşdirən karvan yolu olmuşdur.(1 s 40). Lakin bu nəhəng lahiyə yalnız ticarət yolu deyildi. Böyük İpək yoluna həm diplomatiya yolu, həmçinin kəşfiyyat yolu, eləcə də mədəniyyətlərin çuğlaşması, xalqların yaxınlaşmasını təmin edən müstəsna əhəmiyyətli dəhliz kimi baxmaq olar. " Böyük ipək yolu " termini bizim eradan əvvəl məşhur Çin səyyahı Çjan Syanın səfərindən sonra işlədilib (1 s 49). Eramızın II əsrində fəaliyyətə başlayan bu yol XVI əsrə qədər mövcud olub. Çindən başlayaraq Balkan yarımadasına qədər irəliləyib. Bu yolla hərəkət edən karvanların ən dəyərli məhsulunun ipək olduğunu nəzərə alaraq bu məşhur karvan yolunun adını 1870-ci ildə alman fotoqrafı Fon Rixtofen " İpək yolu " qoymuşdur (1 s 59). Azərbaycan ərazisi bu qədim ticarət yolunun əsas keçidlərindən biri olmuşdur. Azərbaycan Asiya ilə Avropa arasında xüsusi körpü roluna malik olub. Böyük İpək yolundakı ən mühüm keçidlərdən biri də Azərbaycanın qədim torpağı Naxçıvandır. Mənfur düşmənlərin düşünülmüş siyasətlərinin nəticəsi olaraq Azərbaycanın əsas hissəsindən ayrı salınan bu qədim diyar strateji coğrafi mövqeyi və əlverişli təbii şəraiti nəticəsində qədim insanların ilk yaşayış məskənlərindən biri olmuşdur. Bütün bu amillər qədim Naxçıvanı hətta Eldənizlər dövlətinin paytaxtına çevirmişdir. Bu tarixi dövrdə Naxçıvan siyasi , iqtisadi cəhətdən daha da inkişaf etmişdir. Həm Atabəylər dövlətinin paytaxtı olması, həmiçinin də dünya ticarət yollarının üzərində yerləşməsi bu qədim diyarı sürətli inkişafa yönəldərək Azərbaycanın digər şəhərləri arasında daha da perspektivli etmişdir. Naxçıvan şəhəri cənubdan şimala uzanan Marağa-Dəbil yolunda əsas keçid rolunu oynayırdı.(4 s 54).

***Müasir "İpək yolu"***

Azərbaycanın yenidən müstəqilliyini qazanması, müstəqil siyasət həyata keçirən bir tərəfdaş kimi qəbul edilməsi Tarixi İpək yolunun bərpası baxımından Azərbaycanın gələcək perspektivlərindən xəbər verir. Avropa və Asiya arasında əlaqələrin yenidən bərpası və inkişafı fonunda TASİS proqramı meydana gəlmişdir. 1993-cü ilin may ayında TRASEKA ( Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) proqramı qəbul olunub.(2s 126) . Təsadüfi deyil ki, Tarixi İpək yolunun bərpası istiqamətində ən fəal ölkə Azərbaycan seçildi. Bu cür qlobal bir məsələyə Bakı ev sahibliyi etdi. 1998 - ci ilin sentyabrında tarixi ipək yolunun bərpası üzrə beynəlxalq konfrans keçirildi. 32 dövlətin və 13 beynəlxalq təşkilatın iştirakı ilə keçirilən konfransda xalqımızın ümummilli lideri Heydər Əliyevin çıxışında Avropa və Asiya arasındakı körpü rolu baxımından Azərbaycanın rolu xüsusi vurğulanır. Bu tarixi ticarət yolu istər region, istərsə də dünya üçün yeni perspektiv deməkdir. Bu dəhlizin yeni imkanları maraqlı dövlətləri özünə cəlb edir. Qeyri-region ölkəsi olmasına baxmayaraq Çin dövləti də Zəngəzur dəhlizində maraqlıdır. Çinin "Bir kəmər bir yol" layihəsi çərçivəsində planlanan 3 ticarət yolundan biri olan " Orta yol " nəqliyyat dəhlizi Zəngəzur dəhlizininin önəmini daha da artırır. " Bir kəmər bir yol " Layihəsi üçün xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biri ticari-iqtisadi əlaqələrin ucuz, təhlükəsiz, sürətli yolla təşkil edilməsindən ibarətdir. Bu məqsədlə şərti olaraq "Şimal yolu", "Orta yol" və "Cənub yolu" kimi terminlər də daxil edilib. "Şimal yolu" Rusiya ərazisindən keçərək Avropaya uzanan, "Orta yol" Mərkəzi Asiya-Azərbaycan–Gürcüstan–Türkiyəni əhatə edən marşrutu, "Cənub yolu" isə Cənubi Asiya ölkələri ərazisindən keçərək İranı da əhatə edən istiqamətdir. Məsələ burasındadır ki, bu üç əsas yol Cənubi Qafqazda,

Azərbaycan ərazisində kəsişir. Azərbaycan tərəfinin məqsədi və mövqeyi qətiyyətli, eyni zamanda aydındır ki, Zəngəzur dəhlizi, hər şeydən əvvəl, regional əməkdaşlıq qarşısında illərdir dayanan maneələrin aradan qaldırılmasına xidmət etməlidir. Daha sonra regionda dayanıqlı və möhkəm sülh və sabitlik , həmçinin perspektiv imkanlar yaratmalıdır. Dəhlizin mümkün imkanlarını nəzərə alan bir çox dövlət artıq bu reallığı qəbul edərək Zəngəzur dəhlizini dəstəkləyir. Əməkdaşlıq fonunda Azərbaycan " altılıq " platformanı da tam dəstəkləyir. Bu platforma region ölkələrini bir- birinə daha da yaxın edəcək. Azərbaycan, Rusiya, Türkiyə, İran, Gürcüstan və Ermənistanın əməkdaşlıq və təhlükəsizlik sahələrində ortaq fəaliyyət göstərmək üçün xüsusi platformada birləşməsi nəzərdə tutulub. Yəni, bu ölkələr regiondan kənarda olan qüvvələrlə əməkdaşlıq və təhlükəsizlik məsələlərində razılaşdırılmış formada və bir əməkdaşlıq formatının üzvləri kimi iştirak etməlidirlər. Deməli, Zəngəzur dəhlizi həmin altı dövlət üçün geosiyasi və geoiqtisadi aspektlərdə eyni dərəcədə əhəmiyyət kəsb edir və onun təhlükəsizliyi onların hər birinin vəzifəsidir. belə ki, Cənubi Qafqazda hansısa dövlətin hegemon davranışına son qoyulur. Burada Azərbaycan, Rusiya, Türkiyə Gürcüstan və İran bir yerdə aparıcı rol oynamalıdırlar. Digər bir məsələ isə Azərbaycanın istənilən əməkdaşlıq platformasına Ermənistanı da aid etməsidir. Bu humanizm bölgədə uzunmüddətli sülh və əməkdaşlıq baxımından olduqca əhəmiyyətlidir. Beləliklə Azərbaycanın regionda yaratdığı yeni geosiyasi reallıqlar fonunda Zəngəzur dəhlizi tarixi bir inkişaf yolu və çox yaxın reallıqdır. Çinin, Avropanın, eləcə də region dövlətlərinin Zəngəzur dəhlizində ortaq maraqları bu tarixi 300 ilə dayanan qədim yolun bərpasını daha reallaşdırır. Türkiyə dövləti ilə imzalanan, qardaş sevgisini, qardaş dəstəyini dünyaya nümayiş etdirən "Şuşa bəyannaməsi" bölgədə əməkdaşlığın, sülhün, inkişaf persektividir.Analoqu olmayan bu platforma Azərbaycanı regionda və dünyada söz sahibi edir. Zəngəzur dəhlizi ilə bağlı Azərbaycanın qətiyyətli mövqeyi ölkə başçısının Naxçıvan səfərində də özünü göstərmişdir. Prezident İlham Əliyev bu sözləri mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Azərbaycan Televiziyasına müsahibəsində deyib "Mən təsadüfən Ordubad dəmir yolu stansiyası ilə tanışlığa gəlməmişəm. Çünki bunun da çox böyük rəmzi mənası var. Bu yaxınlarda buradan təqribən 50-60 kilometr uzaqlıqda yerləşən Mincivan qəsəbəsinin ermənilər tərəfindən dağıdılmış dəmir yolu stansiyasında baxış keçirdim. Orada dəmir yolu mövcud deyil. Mənfur düşmən bütün dəmir yolu infrastrukturunu dağıdıbdır, talan edibdir. Orada bir mərkəz olacaq, burada bir mərkəz olacaq. Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir, hansı ki, açılmalıdır və açılacaqdır". Nəticə olaraq müzəffər ordu, müzəffər ali baş komandon və müzəffər xalq birliyi sülhün, təhlükəsizliyin, beynəlxalq əməkdaşlığın qarantıdır.

### *Regional Siyasi və İqtisadi Dəyişikliklər*

Müharibə nəticəsində yaranan yeni geosiyasi reallıqlar, regionun siyasi və iqtisadi şəraitini də dəyişdirdi. Azərbaycan, müharibədən sonra bölgədəki infrastruktur və iqtisadi layihələrə sərmayələr yatırmağa başladı. Qarabağ bölgəsinin bərpası və inkişafı üçün müxtəlif layihələr həyata keçirildi. Bu, Azərbaycanın iqtisadi potensialını artırdı və regionda iqtisadi inkişafın sürətləndirilməsinə səbəb oldu. Eni zamanda müttəfiq ölkələr "böyük qayıdışı" təmin etmək üçün Azərbaycana dəstək oldular Azərbaycan isə tarixi komunikasiyaların mərkəzi dövləri olaraq dünyaya inteqrasiyasını gücləndirdi. Həmçinin də görülməmiş humanizm nümayiş etdirdi. İstər Müharibə dövründə, istərsə də sonra atdığı addımlarda beynəlxalq hüquq və konvesiyalara tam əməl etmişdir.

## NƏTİCƏ

İkinci Qarabağ Müharibəsi, Azərbaycan və Ermənistan arasındakı uzun müddət davam edən münaqişənin yeni bir mərhələyə girməsinə səbəb oldu. Azərbaycan, müharibə nəticəsində ərazi bütövlüyünü təmin etdi və regional geosiyasi vəziyyəti dəyişdirdi. Ermənistan isə müharibə sonrası çətin bir vəziyyətlə qarşılaşdı. Bu yeni geosiyasi reallıqlar, bölgədəki siyasi və iqtisadi dinamikaları dəyişdirdi və gələcəkdəki regional əməkdaşlıq və münaqişələrin inkişafını təsir edəcəkdir. Azərbaycan Dünyanın aparıcı ökələri və təşkilatları ilə partnyor olaraq siyasi proseslərdə fəallığını artırmışdır. Zəngin karbohidrogen ehtiyyatları ilə Avropaya çıxışı təmin etmişdir. Yaşıl enerji sahəsində Avropa dövlətləri Azərbaycanı partnyor dövlət olaraq görür.Bu sahədə mühüm sənədlər də imzalanmışdır.

İllərdir öz ata-baba yurdlarından qaçqın və köçkün düşmüş xalqımız Dövlət başçımızın uzaqgörən siyasəti nəticəsində "böyük qayıdışı" təmin eymişdir.

Ölkəmiz Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransın (COP29) 2024- cü ilin noyabrında Bakıda keçiriləcək 29-cu sessiyasına sədrlik edəcək. Beynəlxalq tədbirlərə ev sahibliyi etmək sahəsində zəngin təcrübəyə malik olan Azərbaycan bu mötəbət tədbirə ev sahibliyi etməklə əməkdaşlığın ölkələr üçün əhəmiyyətini bir daha vurğulayacaq.

Ümummilli lider Heydər Əliyevin siyasi dəstixəttini davam etdirən dövlət başçısı İlham Əliyev Azərbaycanı Qafqazın lokomotiv dövlətinə çevirmişdir.

## ƏDƏBİYYAT


1. Aslanlı Araz . Yeni küresel mücadelede Kafkasya və Qarabağ sorunu. Ankara: 2013. EkoAvrasya yayınları. Səhifə 43
2. Babaoğlu Hikmət. Azərbaycan beynəlxalq münasibətlərin aktoru kimi. Bakı: 2007. Elm nəşriyyatı. Səhifə 515
3. Prezident kitabxanası. Dağlıq Qarabağ münaqişəsi: Tammətnli elektron materiallar məcmuəsi. Bakı 2005. Səhifə 127
4. Şıxəliyev Emin. Erməni iddialarının siyasi mahiyyəti. Bakı: 2006. Nurlan nəşriyyatı. Səhifə 187
5. Şıxəliyev Emin. Rusiya, İran, Türkiyə rekabetleri və Erməni faktoru. Ankara: 2004. Naturel yayınları . səhifə 378


## ABSTRACT

## THE GEOPOLİTİCAL REALİTİES CREATED BY AZERBAİJAN İN THE CONTEXT OF THE REGİON'S GEOPOLİTİCAL ENVİRONMENT


**Nazli Yagubova**



Azerbaijan's geographical position in the region, its role as a bridge between the West and the East, its active participation in the creation of the Europe–Caucasus–Asia transport corridor, and its involvement in the restoration of the Great Silk Road elevate the country to a prominent position in the globalizing world. In addition, Azerbaijan has become one of the key states contributing to the energy security of the continent.

The country's rich hydrocarbon resources have historically attracted the interests of major powers in the region and continue to shape regional political and economic competition today. These factors further enhance Azerbaijan's geopolitical and strategic potential.

In 2020, through its counteroffensive operations, Azerbaijan demonstrated to the world the characteristics of twenty-first century warfare and showcased the strength of the "Iron Fist" and the determination often described as the "Iron Will."



**Keywords:** *Azerbaijan, conflict, reality, South Caucasus, Karabakh*


## АННОТАЦИЯ

## ГЕОПОЛИТИЧЕСКИЕ РЕАЛИИ, СОЗДАННЫЕ АЗЕРБАЙДЖАНОМ В КОНТЕКСТЕ ГЕОПОЛИТИЧЕСКОЙ СРЕДЫ РЕГИОНА


**Назлы Ягубова**



Географическое положение Азербайджана в регионе, его роль моста между Западом и Востоком, активное участие в формировании транспортного коридора Европа–Кавказ–Азия,

а также вклад в восстановление Великого Шёлкового пути повышают значение страны в условиях глобализирующегося мира. Кроме того, Азербайджан является одним из государств, играющих важную роль в обеспечении энергетической безопасности европейского континента.

Богатые запасы углеводородных ресурсов исторически выступали фактором, формирующим региональные интересы крупных держав и стимулирующим политико-экономическую конкуренцию в регионе. Эти обстоятельства способствуют дальнейшему укреплению геополитического и стратегического потенциала Азербайджана.

В 2020 году Азербайджан, проведя контрнаступательную военную операцию, продемонстрировал миру особенности войны XXI века, показав силу «железного кулака» и решительность, характеризуемую как «железная воля».

**Ключевые слова:** *Азербайджан, геополитика, Южный Кавказ, энергетическая безопасность, транспортные коридоры, международные отношения.*